**23–25 may 2025-ci il tarixlərində Naxçıvan Dövlət Universitetində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi, “IGDA Azerbaijan” və NDU-nun birgə təşkilatçılığı ilə ilk dəfə oyun yönümlü hakaton keçirilib.**

Bu təşəbbüs Naxçıvanda oyun tərtibatı sahəsindəki potensialın üzə çıxarılması və istedadlı gənclərin dəstəklənməsi məqsədilə həyata keçirilib. Hakaton çərçivəsində oyun yaradılmasına maraq göstərən və müxtəlif təcrübə səviyyəsinə malik iştirakçılar 48 saat ərzində sıfırdan işlək oyun prototipləri hazırlamaq imkanı əldə ediblər.

Üç gün davam edən tədbirdə 30-a yaxın iştirakçı 8 komanda şəklində fəaliyyət göstərib. Onların arasında NDU nəzdindəki İngilis dili təmayüllü gimnaziyanın şagirdləri, Texniki Kollecin tələbələri və orta məktəb şagirdləri yer alıblar. Açılış mərasimində təqdim olunan mövzu əsasında komandalar öz yaradıcı ideyaları üzərində intensiv şəkildə çalışıblar. Proses boyunca iştirakçılar təcrübəli mentorların rəhbərliyi ilə oyun dizaynı və proqramlaşdırma sahəsində biliklərini təkmilləşdirmək imkanı əldə ediblər.

Hakatonun sonunda “FiPa”, “STORMFORCE” və “Legions Game” layihələri üzrə çıxış edən komandalar qalib elan olunub. Tədbirdə iştirak edən hər bir gəncə xüsusi xatirə hədiyyələri təqdim edilib.

Eyni zamanda, oyun dizaynı və oyun mühərriklərində proqramlaşdırma üzrə praktiki təlim sessiyaları da təşkil olunub.

“NakchivanJam 2025” Naxçıvan Muxtar Respublikasında oyun sənayesinə artan marağı və bu sahədəki inkişaf potensialını nümayiş etdirən mühüm bir platformaya çevrilib. Bu cür tədbirlər gənc istedadların üzə çıxarılması, Naxçıvanda oyun ekosisteminin formalaşması və yaradıcı texnologiyalar sahəsində bilik və təcrübə mübadiləsi baxımından böyük əhəmiyyət daşıyır.

Tədbirin linki:
https://www.facebook.com/ndu.edu.az/posts/pfbid0gYz6wCXjdzFqCVYYm4oAXLydTnFBaxchHuPWUSKaeXJxM9BsCAHHYLDMqyxW18Rql?__cft__[0]=AZV_MnoZMBFkeCiN-M0CY78979IWnAUk7vwD-O3be7kEwdIIvPtF97CaDm_KQZsv3tei_tEhL-9Nzcxb4zEKzqu5rjso3SlGJJmihcPfPzr5DmFhdatikyK8MiqUyoNMyCTtf6vw7-EUAErJaOE5fbyUrzteDRZQAyoEgaZEhaR9qAQD8KJP4WXt-iYRxWOgXnbxzJbFd4sDkJXysOgoBVUd&__tn__=%2CO%2CP-R










